Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu

# HƏFTƏLİK BÜLLETEN №21[1]

**Azərbaycanda COVID-19**

**16-22 Noyabr 2020 üzrə mühüm faktlar və qərarlar**

## 1. COVID-19: ölkə üzrə statistika

**22 noyabr 2020-ci il:** Nazirlər Kabineti yanında Operativ Qərargahın yaydığı məlumata[2] əsasən həmin gün 3196 nəfər yeni növ koronavirus infeksiyasına yoluxmuş, 24 nəfər vəfat etmişdir. Beləliklə, pandemiyanın başlanğıcından bu günədək COVID-19 xəstəliyinə yoluxanların ümumi sayı 93094 nəfərə çatmış, bunlardan 63841 nəfəri sağalmış, 1131 nəfəri vəfat etmişdir. Hal-hazırda, 28122 aktiv xəstə mövcuddur. İndiyədək yoluxmanın müəyyən edilməsi məqsədilə keçirilmiş ümumi testlərin sayı 1607455 təşkil edir.

## 2. Mühüm qərarlar

**19 noyabr 2020-ci il:** Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması ilə bağlı əlavə tədbirlər barədə[3]

Nazirlər Kabineti qərara alır: Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2020-ci il 28 dekabr saat 06:00-dək uzadılsın. Bu müddət ərzində, həftə sonları həyat üçün zəruri sahələr istisna olmaqla, digər sahələrdə və istiqamətlərdə fəaliyyət və ictimai nəqliyyatın hərəkətinin dayandırılır.

**19 noyabr 2020-ci il:** Xüsusi karantin rejimində tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə ilə bağlı əlavə tədbirlər haqqında[4]

Qərara əsasən, açıq havadakı ictimai yerlərdə də tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə edilməsi məcburidir.

## 3. Sahibkarların diqqətinə

**21 noyabr 2020-ci il:** 64 obyektdə zəruri qayda və tələblərə əməl olunmadığı müəyyən edilib[5]

İqtisadiyyat Nazirliyinin sahibkarlıq subyektlərində (ictimai iaşə və turizm obyektləri istisna olmaqla) noyabrın 19-da keçirdiyi monitorinqlər zamanı 64 obyektdə epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena tələblərinə əməl edilmədiyi müəyyən olunub. Nöqsanlara yol vermiş sahibkarlıq subyektləri barədə İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görülüb.

---

[1] Bülleten USAID tərəfindən dəstəklənən "Kiçik Sahibkarlığın İnkişafına Dəstək Layihəsi" çərçivəsində hazırlanır.

[2] https://koronavirusinfo.az/files/3/tab_22.11.2020.pdf

[3] https://nk.gov.az/az/document/4917/

[4] https://nk.gov.az/az/document/4918/

[5] https://www.economy.gov.az/article/64-obyektde-zeruri-qayda-ve-teleblere-emel-olunmadigi-mueyyen-edilib014/31409

*Bakı, 22 noyabr 2020*